# Prezident İlham Əliyev: Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik!

*Mən demişdim, bizim hədəfimiz, bizim məqsədimiz işğal edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşlarını qaytarmaqdır. Bildirmişdim, atəşkəs imkan verəcək ki, bu məsələ artıq hərbi müstəvidən siyasi müstəviyə, diplomatik müstəviyə keçsin. Bu məsələ diplomatik müstəvidə danışıqlar masası arxasında həll olunsun və Ermənistan hələ də işğal altında olan digər torpaqlardan çəkilsin, Azərbaycan vətəndaşları oraya qayıtsın və sülh yaransın. Ancaq görünür ki, Ermənistanın planları tam başqa imiş.*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyənin "Haber Türk" telekanalına müsahibəsindən Bakı, 13 oktyabr 2020-ci il***



## Azərbaycanın qətiyyəti regiona sülh, sabitlik və inkişaf gətirəcək

***Mən Azərbaycan Respublikasının vətəndaşıyam və sadə bir vətəndaş kimi bu gün dünya ictimaiyyətinə demək istədiyim fikirlər var. Əlbəttə, bu fikirlər, iradlar və etirazlarım çoxdur. Ancaq əvvəl demək istədiyim iki mühüm məqam var idi ki, onları on milyondan çox vətəndaşın adından danışmaq səlahiyyəti olan Prezident İlham Əliyev qardaş Türkiyənin "Haber Türk" telekanalına verdiyi müsahibədə dilə gətirdi. Özü də, daha aydın, daha konkret şəkildə.***

Beynəlxalq aləmə demək istədiyim fikirlər isə Ermənistan rəhbərliyinin son günlər dilə gətirdiyi iki cəfəng bəyanata münasibətdən ibarətdir. **Birinci-si:** sentyabrın 27-dən bəri həm Ermənistan, həm də onlardan alət kimi istifadə edən ölkələrin bəzi mətbuat vasitələri yazırlar ki, Azərbaycan Ordusunun Dağlıq Qarabağa hücumları nəticəsində çoxlu sayda dinc sakin həlak olur və mülki obyektlərə dağıdıcı zərbələr vurulur. Guya ona görə də Dağlıq Qarabağın Azərbaycana qaytarılmasından sonra sülhdən danışmaq mümkün olmayacaq.

Azərbaycan Prezidentinin "Haber Türk"ə müsahibəsində isə bu əsassız ittihama olduqca aydın və konkret cavab verilir: "Sülhdən sonrakı dönəmə gəlincə, bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur. Bizim mövqeyimiz tarixi ədalətə, beynəlxalq hüquqa və dünyada mövcud olan müsbət təcrübəyə əsaslanır. Yəni, birinci mərhələdə işğal olunmuş rayonlardan erməni silahlı qüvvələri çıxarılır. Prinsip etibarilə bu məsələ artıq Minsk qrupu çərçivəsində təsbit edilib, – beş rayon, ondan sonra iki rayon, ondan sonra Dağlıq Qarabağın özündən, Şuşadan, Xankəndidən – orada bir çox kəndlərdə azərbaycanlılar yaşayıblar – Azərbaycan vətəndaşları oraya qayıdır və Dağlıq Qarabağın gələcəyi ilə əlaqədar müzakirələr davam edir. Ancaq yeni bir şəraitdə, yeni bir iqlim çərçivəsində. Artıq biz sülhə daha da yaxınlaşacağıq. Ona görə orada yaşayan ermənilərlə əlaqədar bizim mövqeyimizdə dəyişiklik yoxdur".

Prezident xatırladır ki, Azərbaycan çoxmillətli dövlətdir, ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, Bakı şəhərində minlərlə erməni yaşayır və onlar bizim vətəndaşlarımızdır. Bizim ölkəmizdə bir çox millətlər yaşayır və bu, ölkəmizin gücünü artırır: "Ona görə Dağlıq Qarabağda yaşayan ermənilər narahat olmasınlar. Biz onların canını o kriminal xunta rejimindən qurtarandan sonra onlar daha yaxşı yaşayacaq, daha güvənli, daha təhlükəsiz şəraitdə yaşayacaq və onların rifahı daha da artacaq. Çünki orada indi səfalət hökm sürür".

Dünya ictimaiyyətinə demək istədiyim **ikinci** məsələ isə ermənilərin islamofobiyası və Türkiyə faktorundan qorxmalarıdır. Onlar beynəlxalq aləmdə həyasızcasına vay-şivən qaldırırlar ki, Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin həllinə cəlb edilməsi ədalətsizlikdir və buna yol verməmək olmaz. Ancaq Prezident İlham Əliyevin dediyi kimi, Türkiyə–Azərbaycan birliyi bölgəyə sabitlik, sülh gətirir.

Dövlət başçımız müsahibəsində dedi ki, müharibə başa çatandan sonra, əlbəttə ki, nəinki bölgə, dünya dəyişəcək: "Artıq dəyişir. Hər kəs bizim gücümüzü gördü. Bizimlə hesablaşmaq səviyyəsi daha da artacaq. Onsuz da müəyyən regional məsələlərdə Azərbaycanın rolu çox önəmlidir, o daha da artacaq. Təbii ki, Türkiyə–Azərbaycan birliyi daha da möhkəm olacaq. Bu da həm Türkiyə, həm Azərbaycan üçün həyati əhəmiyyət, önəm daşıyır. Türkiyə–Azərbaycan birliyi bölgəyə sabitlik, sülh gətirir".

Yaxşı yadımızdadır. Otuz il idi ki. ermənilər müxtəlif səviyyəli danışıq və müzakirələrdə özlərinə sərf edən variantların tətbiqinə nail olur, Azərbaycanın mövqeyi nəzərə alınmırdı. İndi isə zaman başqadır. Prezident İlham Əliyev türk televiziyasına verdiyi müsahibədə qətiyyətlə dedi ki, Moskva razılaşmasında bizim şərtlərimizdən kənarda hər hansı bir razılaşma mümkün deyildi. O ifadəni eşidəndə, sadəcə fəxr etdim : "Moskva anlaşmasında, açıqlamasında bizi qane edən, bizim maraqlarımıza cavab verən maddələr bizi təmin etdi. Onu da bildirməliyəm ki, Moskva müzakirələrinin uzun çəkməsinin səbəbi o idi ki, bizim üçün məqbul olmayan bəzi maddələr o açıqlamaya salınmalı idi. Bizim bundan xəbərimiz yox idi. Bizim Xarici İşlər nazirimiz Moskvaya gələndə və artıq müzakirə masasına əyləşəndə hər iki nazirə təkliflər verildi. Təbii ki, mənimlə əlaqə saxlanıldı və biz müntəzəm olaraq əlaqədə idik. Mən bizim şərtlərimizi demişdim və o şərtlərdən kənarda hər hansı bir razılaşma mümkün deyildi".

Bu müsahibədə region ölkələri və dünya ictimaiyyəti üçün önəm kəsb edən məqamlar da var idi. Belə ki, erməni ideoloqları və bəzi ermənipərəst siyasətçilər həmişəki kimi, yenə də əsassız iddialar irəli sürürlər ki, iş bərkə düşərsə – yəni Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməkdə israrlı olarsa, onda Ermənistan dövləti və bəzi başqa ölkələr Dağlıq Qarabağın müstəqilliyini tanıya bilər. Səhv edir və gözlərinin içinə qədər yalan danışırlar.

Bu barədə danışan Azərbaycan Prezidenti bütün dünyanın eşitdiyi tərzdə deyir ki, Ermənistanın hazırda göstərdiyi cəhdlər yersizdir və onların özləri üçün zərərlidir: "Çünki birinci növbədə heç bir ölkə Azərbaycanın ayrılmaz hissəsi olan və beynəlxalq hüquq baxımından Azərbaycana mənsub olan Dağlıq Qarabağa müstəqillik verməyəcək, onu tanımayacaq. Belə olan halda, bu cəhdlər səmərəsiz qalacaq. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınıb. Baxın, Minsk qrupuna həmsədrlik edən ölkələr, onlar bizim ərazi bütövlüyümüzü tanıyırlar. Avropa İttifaqı ilə bizim "Tərəfdaşlıq prioritetləri" adlı sənəd paraflanmışdır. Orada Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına dəstək göstərilir. Yəni, mən inanmıram ki, hər hansı bir ölkə Dağlıq Qarabağın müstəqilliyini tanısın. Çünki bundan heç bir saat keçməmiş bu ölkə ilə biz bütün diplomatik əlaqələrimizi kəsərik. Bu, mütləqdir. Ona görə Ermənistanın bu cəhdləri, sadəcə olaraq, daxilə, yəni, öz ictimaiyyətinə hesablanıb ki, sanki bunlar da hər hansı bir diplomatik fəaliyyətdədirlər".

Yeri gəlmişkən, Ermənistanın özünün Dağlıq Qarabağın müstəqilliyini tanımaq üçün gücü çatmır. Əgər gücü çatsaydı, dünya dövlətçilik tarixində ən başdanxarab dövlət başçısı olan Nikol Paşinyan "Dağlıq Qarabağ Ermənistandır" deməzdi. Bu qələti edəndən sonra "Dağlıq Qarabağ Ermənistan yox, müstəqil dövlətdir" ifadəsini necə, hansı üzlə dilə gətirə bilər? Amma o və onlar deyə bilərlər. Çünki dediyi sözü gündə azı iki dəfə dəyişmək onların xəstəliyidir.

Bu sətirləri Azərbaycan Prezidentinin "Haber Türk"ə müsahibəsindəki ən nikbin cümlələr və ən ürəkaçan notlarla tamamlayırıq: "Qoy, bunu həll edək, bu iş bitsin, ərazi bütövlüyümüz bərpa edilsin, ondan sonra Azərbaycanın yeni dövrü başlanacaq, bölgənin yeni dövrü başlanacaq, güclər nisbəti dəyişəcək və hesab edirəm ki, Türkiyə və Azərbaycanın gücü daha da möhkəm olacaq".

**İttifaq MİRZƏBƏYLİ,**
*"Xalq qəzeti"*